ANA MƏHƏBBƏTİ

VƏTƏN DUYĞULARI

Bakıdan beş gün ayrılanda
yuxuma Xəzər girir.
Sarı qumlu sahillərdə çırpınan
gümüş telli ləpələr girir.
Abşeronun boz, yanıq çölləri
girir yuxularıma,
Anasıyçün ağlayan
körpə uşaq kimi ağlardım
qoysaydılar məni
öz ixtiyarıma.

Dənizdə boylu çinar kimi yüksələn
Tənha buruğun təklik
qəmini düşünürəm.
Eybi yoxdur, deyirəm,
çoxafarsınız yaxın zamanda.
Təklik çətin olur
Həm şad gündə,
həm tufanda...
Alagözlü gəlin Göygölümü
düşünürəm.

Yuxularıma Hacıkəndin
palıd meşələri girir.
Gəncliyim Xaçbulaq yaylağında
sarı çiçək dərir.
Dağlarım, dərələrim, çöllərim var,
Salxım-salxım yasəmənim,
çəmən-çəmən güllərim var.
Zənginlərdən zənginəm,

Dalğalı bir dənizəm,
Buludsuz bir ənginəm.
Anam bircə qız gətirdi dünyaya
Lakin tək olmadım
bircə an da.
Tək olmadım nə xoş gündə,
nə tufanda.
Qardaşlarım var –
yüz-yüz
igid ürəkli qəhrəman.
Bacılarım var –
saf dilekli, mehriban.
Ayağımın altında –
neft ətirli torpağım,
Başımın üstündə ulduzlu göylərim.
Sularında doya-doya çimdiyim,
məxmər örtüklü Xəzərim.
Bir udum vətən suyuna,
Bir ovuc vətən torpağına
Həsrət olanları düşünürəm.
Vətəndən ayrı düşüb,
Qürbətdə qalanları düşünürəm.
Çətindir vətənsiz, elsiz olmaq,
Ağırdır nəğməsiz, dilsiz olmaq,
Doğma, şirin nəğmələrimi
dəyişmərəm bu dünyanın
dövlətinə, malına.
Dəyişmərəm dost təbəssümünü
Dünyanın cah-cəlalına.

XƏZƏR NEFTÇİSİNƏ

Fərhad dağ çapdı
Şirin eşqinə.
Məcnun biyabana düşdü
Ahu gözlərin eşqinə,

Kərəm yana-yana
dağları aşdı,
Qərib aşiq
möhnətlə qucaqlaşdı.
Sən sədaqətdə Məcnun,
Hünərdə Fərhadsan,
Anaların dünyaya gətirdiyi
adi bir övladsan.
Yanmamısan şamın atəşində
pərvanələr kimi,
Biyabana düşməmisən divanələr kimi,
Dağ boyda dalğalarla
pəncə-pəncəyə gəlib
dənizin dibinə girmisən.
İgid qəlbinin məhəbbətini
vətənə vermisən.
Əsrimin Fərhadısan
qolu, gücü, zehni kəskin
Sən bir əmək ustadısan
Dərin-dərin dənizlərin.
Yaşadacaq tarix səni
Möcüzələr şəhərinin igiditək,
Yaşadacaq səni xalqım,
Yaşadacaq xoş gələcək.

YAZI STOLUM

Üzərinə sarı xəzan yarpaqları tökülən
Soyuq bir xiyabana bənzəyir stolum.
Toxunanda qolum
Yazda meşədən gətirdiyim
Vələs budağa
Saldı həzin-həzin,
Yazı masama axırıncı sarı yarpağı.
Çökəndə axşam qaranlığı,
Dərin sükut dolduranda otağımı,

Yandırmamış ürəyimi
Yandırmadım çırağımı...
Çarpan bir qəlbin istisi
Məşəl kimi işıqlatdı hər yanı,
İlhamın hər şeyi görən
İnsan qəlbinə qüvvət verən
Şəfəqlərində aydın gördüm dünyanı.
Uzun isti bir yayı
Ayrı düşdüyüm,
Əziz yar kimi
Qovuşdum ona həsrətlə,
Əyildim üzərinə stolumun
hörmətlə.
Vətəndən ayrı düşən,
Qürbətdən gələn,
Vətən torpağına
Səcdə üçün əyilən.
Həsrətli bir adam kimi mən
Çıxıram aydın iş yoluma.
Bir dost kimi qovuşuram yazı stoluma.
Sevincim, qüvvətim, pənahım mənim,
İş yerim, stolum, dəzgahım mənim.

AKTRİSA

Ülvi, məsum, füsunkar
Bir eşqin qanadında
qalxıb eləyir pərvaz.
Bəxtiyardır... sevilir...
Məhəbbətin qoynunda
Xumar-xumar edir naz...
Sevdiyi saf ürəkli
İgid bir sərkərdədir,
Adı da, hünəri də,
Göydə deyil, yerdədir.
O səmavi pərinin

Qəlbi intizardadır,
Görəsən o mehriban
Sevgilisi hardadır?!
Bəlkə pəncə-pəncəyə
Gəlir tufanla bu dəm,
Göylər yerə qovuşur,
Qarışır bütün aləm.
Şeypurlar zəfər səsli:
Qələbəylə gəlir o.
Günəştək əzəmətlə
Parlayır, yüksəlir o.
Səadət qanadında
Qarşılayır cananı.
Gözəl bir cənnət bilir
Bu günahkar dünyanı:
Əfi bir ilan kimi
Şübhə girir araya.
Fitnə-fəsad yuvası
Çirkin, qanlı saraya.
Pozulur məhəbbətin,
Səadətin növrağı
Cəhənnəmə çevrilir.
Gözəl gəlin otağı...
Bir gecədə ağlayır,
Bir gecədə ağladır.
Qısqanclıq əzabının
Acı zəhrini dadır.
Xeyirxahlıq duyğusu,
Dost hissləri yaşadan,
Dünyanı cənnət bilən
Sadiq, nəcib bir insan,
Zərif, incə, xoşqılıq
Mələksimalı varlıq.
Bir gecədə bəxtiyar
Göylər kimi ləkəsiz.
Gah ali bir hökmdar,
Gah zavallı bir kəniz.

Qısqanclığın əliylə o,
Düşür ölüm yatağına
Pərdə enir, qalxıb yerdən
Qaçır geyim otağına.
Bədənnüma güzgüdə o
Baxıb görür surətini,
Görür nakam məhəbbətin
Ağır, məhzun qismətini.
Baxır-baxır o, hələ də,
Ayrılmamış o aləmdən,
Qısqanclıqdan, ehtirasdan
Qismətinə düşən qəmdən.
Harda isə uzaqlarda
Gurultayır alqış səsi,
Alır onu bu aləmdən
Alqışların xoş nəfəsi.
Bayaq "ölmüş" bu gözəlin
Alnında tər inci-inci.
Gözlərində sonsuz fərəh,
Əmək, sənət, iş sevinci.
Dezdemona, Gültəkin,
Firəngiz, ya Məhəbbət, –
Başqadır, hər birində
Həm həyat, həm aqibət.
Qurtarınca tamaşa,
O silir boyaları,
Gülümsəyir sənətkar
Aynada gecəyarı.
Ona fərəhlə baxan
Dostlarına söyləyir:
– Oynardım həvəslə, kaş
Yeni bir əsər olsun.
Dünyada mən bir sevinc
Bir fərəh bilmirəm ki,
O əmək sevincinə
Yaxın, bərabər olsun.

1958

AĞAC KÖLGƏSİNDƏ

Qarı ağac kölgəsində
Xalça salıb yatmışdı.
Qarının ağ saçları
Ağ yastığa batmışdı...
Qarının üzündəki cizgilər
dərin-dərin...
Nə böyükdür mənası
Yorğun qapaqları örtülmüş
çuxurdakı gözlərin?!
Qarının bu dünyada
Acı keçdi günü, ruzigarı.
Ellərə bahar gələndə
Köçüb getmişdi onun
Gözəl gənclik baharı...
Qarı nə boran bildi, nə qar,
Alışdı qəlbində arzular,
Bir əli beşik yırğaladı,
Biri corab toxudu.
Qüssələndi könlü onun,
Hərdən nəğmə oxudu...
Lakin bir gün həyatında
O, boş-bekar dayanmadı,
Hərdən yerə alışmadı,
Əbəs yerə o yanmadı.
Puçur-puçur töküləndə
Alnındakı inci təri,
Bir fərəhlə gülümsədi
Onun qara, saf gözləri.
Bu dünyada veyil-veyil
Dolanmadı,
Aralıqda söz gəzdirib
Çirkli sutək bulanmadı.
Sədaqətlə ömür sürdü.
Ömründə çox işlər gördü.
Baxıram qarının üzündəki

Cizgilərə diqqətlə,
Baxıram hörmətlə, məhəbbətlə...
Bu cizgilər zamanın əlilə
Nəqş etmiş onun üzünə
Böyük bir dastan.
Bu cizgilər verir nişan
Çirkaba düşməyən,
Kol-kosa ilişməyən,
İnsan ləyaqətilə ömrünü başa vuran
Yüksək, böyük bir həyatdan.
Yalnız ömrünü
belə sədaqətlə,
Fədakarlıq və zəhmətlə
Keçirən bir insan,
Dodağında belə xoşbəxt təbəssümlə
Yata bilər şirin-şirin,
Axır mənzilinə yetişəndə
son illərin.

MƏN SƏNİ SEVİRƏM, İNSAN!

Hardan gəldin,
bilmirəm,
Kim çağırdı səni,
bu an
Qızdırmada yanan
Xəstə uşağın yatağı önündə
Tək oturan ananın köməyinə.
Kim çağırdı səni,
Kim açdı qapını sənə?
Qəlbindəki mərhəmət
Açdı bağlı qapının kilidini.
Nə anamsan,
nə bacım,
nə həkimsən,

Tanımasam da səni,
bilirəm kimsən...
Körpəyə şəfa gətirdin,
Ümidsiz ana qəlbinə
Ziya gətirdin.
Bilmirəm gəlmisən hardan.
Mən səni sevirəm, insan!..
Qatar tövşüyə-tövşüyə dayandı
Yasəmən çiçəklərinə qərq olmuş
Bir Şimali Qafqaz
kəndinin yaxınlığında,
Yaşıl otlar üstə
köç salmış bir durna qatarı kimi
Evlər ağ,
Yasəmən saçaq-saçaq...
Gəzir stansiyada qızlar,
oğlanlar
Əllərində yasəmən dəstələri.
Bir qız mənə çöldən bir dəstə
Yasəmən uzadır içəri.
Gözlərimiz təbəssümlə görüşür.
Mən ona deyirəm: – Sağ ol!
O mənə: – Yaxşı yol!
Qatar yola düşür.
Ətraf sakit, hava ilıq,
Baxıram kiçik saatıma,
Bir an olur bu tanışlıq.
O qız bir dəstə yasəmənlə girir
Mənim xatiratıma...
Gözlərim doymayır
Bu yasəmənli kəndin,
Bu qızıl saçlı qızın
Tamaşasından,
Mən səni sevirəm, insan!

Bu mücərrəd insan kimdir? – deyər
tənqidçilər
Suyu, duzu, çiçəyi,

Duyğu, arzu, diləyi,
Bir olan,
Mənimlə bir havanı
Tənəffüs edib yaşayan;
Qəlbində bir torpağın, bir elin
Məhəbbətini daşıyan,
Sevincimi öz sevinci kimi,
Dərdimi öz dərdi kimi bölən,
Mən güləndə gülüb,
Ağlayanda gözümü silən
Mənim doğma vətəndaşımdır,
Yoldaşım,
sirdaşım,
qardaşımdır.
Sevirəm hər zaman,
Mən səni sevirəm, insan!

YOL

Kəndimizdən
bir yol saldıq şəhərə,
Asfalt döşəməli təzə yol
gümüş kəmər kimi
uzandı...
Bağlayan olmadı
köhnə yolu da,
O, yaddan çıxıb
bir kənarda qaldı.
Gedən, gələn olmadı
o yoldan,
Çayır, yovşan orda
özünə yurd saldı...
Bəzən cır-cır arabaların
çarxları süründü
köhnə yoldan.
Fərəh duymadı bu yolun
yolçusu insan.

Asfalt yoldan maşınlar
keçdi qatar-qatar.
Bayraqlar qızardı
təzə yolun üstündə
səhər kimi.
Kəndimizin asfalt yolu
uzanıb getdi şəhərə
gümüş kəmər kimi...
Köhnə yolu
bağlamadılar,
Yaddan çıxdı, – deyə
ağlamadılar.
Yavaş-yavaş silindi
zehinlərdən
Kəndin köhnə tozlu
yolları.
Yeni kəndin sakinləri
axdılar
Gümüş kəmər kimi uzanan
təzə, asfalt yola sarı.

İSTİRAHƏT EVİNDƏ GECƏ

Dəniz sahili... Gecə...
Gənclər yatmayıb hələ,
Dolaşırlar bağçada
Danışıb, gülə-gülə...
Dinlədikcə onları
Yuxum qaçır, yatmıram,
Ay girir buludlara,
Pərdələri atmıram.
Bir səs deyir: "Bu yazı
Gedirəm Moskvaya".
Biri deyir: "Bir ili
Mən qurtardım beş aya".

Birinin dodağında
Həyəcan dolu sorğu:
"Qazıb qurtardılarmı
Bir biləydim buruğu?"

Ulduzlar ilham verir,
Gecə şer gətirir,
Ruzgar da əzbər deyir
Bu gecənin şerini.
Gecə məni görməyir,
Yatmışam sinəsində.
Nə şirin bir ilham var
Bu gecənin səsində!

BAHAR LÖVHƏSİ

Pəncərənin önündə bir ağac
puçurladı, yarpaq açdı
aram-aram...
Üzərinə qar kimi töküldü
ağ çiçəklər
səhər-axşam.
İnci şehlərdən içib
yaşıllandı ağacın
yarpaqları.
Sənətkar iş otağında
Rəssam fırçasıyla
vəsf etməyə başladı
baharı.
Bahar dolu pəncərədən
günəşlə, ilhamla,
Ağacın çiçəkləri
meyvə oldu
yavaş-yavaş, aramla...
Yaz getdi, yay ötüşdü,
Soyuq payız küləkləri əsdi,

Səhər-səhər budaqların üstünə
qırov düşdü...
Gözəl quşlar şux nəğmələrini
yavaş-yavaş kəsdi.
Dəyişdi təbiətin
rəngi, əhvalı,
Yalnız dəyişmədi
rəssamın
bahara vurğun xəyalı!
O, baharı yaradırdı,
Qəlbində bahar vardı.
Tükənməyən diləklər,
arzular vardı...

SEVGİLİM GÖRÜŞ İSTƏYİR

Sevgilim görüş istəyir
bu axşam ay işığında.
Əllərimi tutmaq istəyir əllərində,
Lakin qəlbimin dərinliklərində
Başqa birisinin həsrəti var,
Çoxdan bəri çəkirəm intizar.
Ona vurulmuş ürəyim...
Ondan ayrılmamış bir an
nə arzum, nə diləyim...
O, xəyanət sevməz,
sədaqət istəyir.
Bütün bir ömür boyu
vəfa, hörmət istəyir.
Gözləyirəm,
saçlarımı daramamışam,
Ayna qabağında verməmişəm
özümə sığal.
Bir az yorğunam,
bir az əsəbi,
Bəlkə üzmüş məni
bütün günü gözlədiyim bu vüsal?

Çoxdan bəri sevdiyim,
Çoxdan bəri intizar çəkdiyim
nədən sual etmirsiniz
kimdir, kim?
O gəlməyir,
başını sinəm üstə qoyub
dincəlməyir...
Oturub bütün gecəni
Gözləyirəm,
bütün bir ömür boyu,
məni
gözlədəni.
Yuxusuz gözlərim qapanır,
başım ağrıyır,
ürəyim yanır.
O gəlməyir,
o sevməyir,
pərişan xəyalları:
O sevməyir
saçları daranmamış
Səliqəsiz bir qadın otağına soxulmağı
gecəyarı.
Günəş sərir torpağa
Al-əlvan tellərini
Salamlayır yurdumun,
Bəxtiyar səhərini.
Torpağın nəfəsilə,
körpələrin nəğməsilə,
Sevgilimin əllərindəki hərarətlə,
Günəşlə, baharla, məhəbbətlə
gəlir.
Çoxdan bəri gözlədiyim,
axtarıb izlədiyim
Həyatla gəlir,
Fərəhlə, qanadla gəlir,
Çöllərin ətrilə,
şer misralarıyla,
romanların sətriylə.

Çıraqban şəhərlərin
gecə mənzərəsiylə,
Vətənimin qaynar,
coşqun həyat səsiylə gəlir.
Bu axşam,
mehribanım, sevgilim
ilham!

ALIN TƏRİ

Günəş qızıl örpəyinin
Yığır zərli saçağını
çöllərdən.
Həzin meh əsir hərdən.
Bir dəstə qız gəlir
Yol ilə gülüşə-gülüşə
kəndə sarı.
Gülümsəyir uzaqdan onlara
Doğma kəndin işıqları.
Onlar işdən qayıdır,
Pambıq tarlasında
alaq edib hərəsi.
Qumrov kimi səslənir
Onların şən nəğməsi.
Çölləri toy süfrəsi kimi
Bəzəyib səliqəyə salan,
Qeyrətli əməyindən
fərəh və ilham alan,
Ömrü-günü vətənə,
xalqa xidmətdə keçən,
Alın təriylə
əkən-biçən
İnsanların fərəhi,
sevinci tükənməzdir!
Şadlığı, səadəti
insandan uzaq yerdə

Axtarmaq əbəsdir!
İndi bu axşamçağı
İşdən qayıdan
Bu qızların fərəhini yaradan
Nə qumaş, nə incidir,
Sevinclərin ən müqəddəsi
Alın təriylə qazanılmış
Azad əmək sevincidir.

BAHAR GƏLİR

Bağban təzə basdırdığı
Bir pöhrəyə dayaq vurur,
Bir meyvəsiz cır ağaca
Bar gətirən calaq vurur.
Ana tutub körpəsini
Yeritdirir yavaş-yavaş,
Arzulayır bu baharda
Dil açaydı körpəsi kaş.
Bütün qışı tufanlarla
Pəncələşən neft ustası,
Baxın aydın üfüqlərə
Ürəyində yaz sevdası.
Şair könül diyarından
Söz axtarır dəstə-dəstə,
Puçurlayır çiçək açır
Təzə şer kağız üstə.
Qaranquşlar yığın-yığın,
Yenə süzə-süzə gəlir,
Pambıq əkən dəstə qızlar
Əlvan geyib düzə gəlir.
Gənc bəstəkar yeni mahnı
Bəstələyir pərdə-pərdə,
Körpə tərlan qanad açıb
Pərvaz edir saf göylərdə.

Dağda donmuş bir bulaq da
Şırıl-şırıl axıb gedir.
Yamaclarda göy otlara
Oğrun-oğrun baxıb gedir.
Coşqun həvəs nəfəsiylə
Torpaqlar da oyanır bax,
Soyuq, quru səhralarda
Şölə saçıb yanır çıraq.
Bir gənc oğlan küçələri
Dolaşaraq aram-aram,
Deyir kaş ki, mən o qıza
Rast gələydim bir bu axşam.
Ürəyində məhəbbətin
İlk fidanı yarpaq açır,
Daxili bir hərarətlə
Nəzərləri şölə saçır...
Ana durub intizarla,
Stansiyada gözləyir o.
Üfüqlərdə hər buludu,
Hər kölgəni izləyir o.
Yaz tətili oğlu gəlir,
Ana çıxmış qabağına.
Bir dəstə gül gətirmişdir
Gələn əziz qonağına.
Dəyişəydi qatarların
Deyir kaş ki bu cədvəli,
Anaların arzuları
Həm böyükdür, həm məzəli.
Ürəklərə ilham verən
Coşqun həyat qaynağıdır,
İnsan qəlbi arzuların
Tükənməyən bulağıdır.
İnsanların ürəyinə
Bahar gəlir, bahar gəlir,
Xoş əməllər, xoş duyğular,
Fərəhli arzular gəlir.

RƏQƏMLƏR

Natiq
quru, soyuq nitqiylə
qəm gətirdi.
Yığın-yığın hesab açdı,
xeyli rəqəm gətirdi.
Əsnəməkdən çıxdı çənəsi
salondakıların,
Kimi yumub gözünü
mürgülədi narın-narın.
Natiq
gah qızardı,
gah da sildi tərini.
Həyəcana gətirə bilmədi
dinləyicilərini...
Təqsir rəqəmlərdə deyil,
Ədədlərdə deyil,
Təqsir yuxuya gedən
bir nəfərdə deyil.
Ürək qaynar olsa əgər
rəqəmlər də canlanar,
Döyüşən bir ürəyin
çırpıntısıyla
İnsanların beynində
aydın bir fikir oyanar.
Ürək qaynar olsa əgər
böyük;
gözəl bir ölkənin
qaynayan həyatıyla
birgə döyünər
Soyuq, quru görünən
rəqəmlər...

MAYAK

Dəryada bir mayak yanır,
Gəmilərə yol göstərir işığıyla.
Uzaq yollar yolçusunun
Qəlbini fərəhlə doldurur
ümid verən yaraşığıyla.
Dəryada bir mayak yanır,
Bir qadın yandırır
onu hər axşam,
Onu bir ana yandırır, –
uzağa gedən gəmilərin
yolunu
O öz ana qəlbinin
məhəbbətilə işıqlandırır...
Uzaqda qalır
Doğma sahillər,
Uzaqda qalır vətən torpağının
işıqları,
Köpüklü dalğaları
yararaq,
Uzaqlaşır gəmilər
gecəyarı.
Gəmilərin yoluna
işıq saçır
Ana qəlbinin
ümid çırağı.
Uzaqlarda qalır
doğma sahillər,
Uzaqlarda qalır
əziz ana torpağı...
Dalğaları yara-yara
gedir gəmi uzaqlara...
Qəlbində vətən məhəbbətilə
yaşayan,
Sinəsində vətənin
müqəddəs sevgisini daşıyan

İnsanların yolunu
işıqlandıran,
Dəryalara nur saçıb
mayak yandıran
Anaların müqəddəs,
xeyirxah niyyətidir,
Əbədi bir çıraqtək
yolları işıqlandıran
Yüksək, böyük, müqəddəs
Vətən məhəbbətidir.

YASDA

Ağlama, ana,
ərəb xəlifələrinin
minillik dərdinə,
Ağlama yana-yana.
Qumlarda üryan olan,
gözləri giryan olan,
Fatimeyi Zəhranın
dərdi nəyinə gərək.
Onlardan əl çək,
Tarixin qara səhifələrində
itib gedən
Qədim qanlı faciələrin
dərdi sənə qalmayıb.
Tayfa davasında
həlak olan
İmamların matəmi –
zaman keçsə belə –
sənin nəzərində
azalmayıb
Ağlama, ana.
Ağlama yana-yana.
Öldürsə də firqəti-Əkbər
Leylanı-Leylanı,

Yandırsa da ağır dərdlər
Leylanı-Leylanı,
Sən Vətən davasından
gedib qayıtmayan
üç oğlunun qəmini çək;
Min yerdən yara alan
vətənin dərdini çək.
Yetim balaların,
Dul gəlinlərin,
oğulsuz anaların
ağla dərdinə.
Ərəb xəlifələrinin
Minillik matəmi
qalmayıb sənə.
Qəmin, kədərin,
mənası böyük,
mənası dərin.
Sənin tökdüyün
göz yaşları
puçdur, hədərdir.
Ağlama, ana can,
Bax, dan yeri qızarır,
Artıq səhərdir.
Yurdun – gözəl,
səhəri – aydın.
Bu güllü bağçaların
mehmanı olaydın,
mehmanı olaydın.

ƏMƏK SEVİNCİ

Bakı məsrur gözəlliyiylə
batmış dərin yuxuya.
Hava sakit, gecə səssiz,
ilıq bir yay nəfəsiylə
Xumar-xumar yırğalanır dəniz...

Yatmış dilbər Bakı dərin-dərin.
Döyür qapısını xəyalım bu gecə
Şirin-şirin yatan
bu şəhərin...
Xəzərin sinəsində yol salmış
Ulduzların karvanı,
Oxşayır sahilləri
həzin-həzin ləpələr...
Bir qəhrəman sinəsinə
Yaslanmış kimi arxayın
Yatır mavi gözlü Xəzər.
Bir evdən işıq gəlir,
Sadə çıraq işığı deyil
Bu evin pəncərəsindən
süzülüb axan
Bir cüt parlaq göz kimi
Zülmətə baxan,
Bu qoşa pəncərənin arxasında
Sinəsini yazı masasına dayamış
Bir alim, axşamdan bəri,
Qələm çalır.
Elə bil onun
zəkasından alır
İşığını çıraqlar,
O nə isə düşünür.
Yada salır,
Neçə-neçə açılmayan müşkülü var...
Saçlarına dən düşmüş onun,
Qoca deyil, sinni azdır.
Neçə qışdır, neçə yazdır
Bu dolaşıq misalların
Həlli ilə məşğuldur o.
Çətin, quru rəqəmlərə
Hakim olsa da çox zaman,
Bəzən elə bil bu rəqəmlər
Əlində
Sadə bir quldur o.

O, iti qələmilə yazır, yazır...
İnteqrallar aləmindən
Ayrılmayır bir an.
Şer misralarından
Daha şirindir ona
Zaman-zaman açdığı
Bu misalların həlli.
Soyumayır bir anda,
Tapmayır təsəlli,
Qızğın bir ehtirasa qapanaraq
Hər yanda
Yazdıqlarını görür...
Duman içindən səhər açılan kimi
Beynində aydınlaşır,
Artır həvəsi, sevinci daşır,
Alnının inci təri damla-damla tökülür.
Qələminin altında bir kağız da bükülür.
Bax, biri də, biri də
Atılır bir bucağa.
Yenə dərin bir sükut
çökür otağa.
Yenə qələm işləyir,
Yanır alim zəkası.
İşıqlanır ədədlər və rəqəmlər dünyası...
Burda zəka işləyir iti bir xəncər kimi,
Burda qələm hədəf alır
Dürüst atan əsgər kimi.
Birdən onun gözündə
Özgə bir işıq yanır.
Otağını bir dünya,
Özünü düşmən qalasına
İlkin qalxan bir əsgər sanır!..
Bir gecəlik zəhməti o bu saat qurtarır,
O, çətin misalları
düzgün yolla çıxarır.
Ağ dəsmalıyla silir alnının tərini,

Sevinc, fərəh işıqlandırır
onun yorğun gözlərini.
Baxır pəncərədən doğma şəhərin
gecə mənzərəsinə.
Qulaq asır dalğaların
sakit, yorğun səsinə...
Elə bil ki, ulduzlar da bəyənmişdir
Kainatın bu füsunkar guşəsini,
Bəzəmişdir göy Xəzərin
Yaraşıqlı sinəsini...
Bakı işıq səhrasıdır,
Karvan çəkmiş ulduzlardan,
Bakı şair ilhamıdır,
Bakı gözəldir hər zaman!
Gənc alim də fərəhlənir,
Ürəyində iftixarla
Baxır doğma şəhərinə.
Baxır, baxır o, vüqarla.
Əmək, zəhmət yaraşıqdır
Bizim doğma bu şəhərə.
Gəzir fikir, dolaşır hey
Küçələrdən küçələrə.
Varaqlayır xəyalında
O, ömrünün kitabını.
Elə bil ki, əzbər deyir
Sevinclərin hesabını.
Oxşadıqca sərin rüzgar
Saçlarını onun hərdən,
Alim deyir öz-özünə:
Nə xoşbəxtəm bu gecə mən.

Qoy çalışmaq, yaratmaq,
Hər döyünən nəcib qəlbdə
Bir arzu, bir əməl, bir hünər olsun!
Dünyada bir sevinc, bir fərəh varmı
Azad əmək sevincinə bərabər olsun?!

BAHAR NƏĞMƏSİ

Yaşıllanır çöllər, oyanır torpaq,
Bəzənir gəlintək hər dərə, hər dağ,
Ruhuma bir adət olur çırpınmaq.
Məhəbbətim səndə, könlüm səndədir,
Bahar nə nazəndə, nə nazəndədir.

Gah yoluna çıxdım, gah yola saldım,
Gah intizar çəkdim, həsrətlə qaldım.
Qışda sorağını uzaqdan aldım,
Dedim əmanətim, eşqim səndədir,
Bahar nə nazəndə, nə nazəndədir.

Xoş nəğmələr qoşdum sənin adına,
Saf bir nəfəs kimi çatdın dadıma.
Bir həzin axşamda düşsəm yadına
Bil ki, məhəbbətim, könlüm səndədir,
Bahar nə nazəndə, nə nazəndədir.

NEYLƏYİM

Ala gözlüm, səndən ayrı gecələr
Bir il kimi uzun olur, neyləyim?
Bağçamızda qızılgüllər hər səhər
Tezdən açır, vaxtsız solur, neyləyim?

Nərgizlərin gözü yaşla dolanda,
Bənövşələr baxıb qəmgin olanda,
Qərənfilin gözü yolda qalanda
Yasəmən saçını yolur, neyləyim?

Əsən rüzgarın da yoxdur vəfası,
Düşmüşdür başına özgə sevdası.
Lalənin cırılıb qəmdən yaxası,
Saçları pərişan olur, neyləyim?

Bəlkə tez gələsən əlac verəsən,
Sünbülün saçını yığıb hörəsən,
Əlvan çiçəkləri özün dərəsən,
Gözləri yollarda qalır, neyləyim?

Çəkir çiçəklərin gözü intizar,
Ayrılıqdan betər dünyada nə var,
Bu bahar axşamı səni bax, Nigar
Həzin-həzin yada salır, neyləyim?

DAĞLARI DUMAN ALANDA

Dağları duman alanda,
Gözüm yollarda qalanda,
Yadıma səni salanda,
Gül yanağım solmasınmı?

Əsən yellər, əsən yellər
Sevgilimdən mənə xəbər.
Solanda narın çiçəklər
Gözüm yaşla dolmasınmı?

Bu yerlərdən keçməz oldum,
Dost, düşməni seçməz oldum,
Eşqimə and içməz oldum,
Könlüm xarab olmasınmı?

NƏĞMƏ

Çox incitdi yar könlümü,
Etdi tar-mar könlümü,
Hicrandan qurtar könlümü,
Aman gözəl, aman gözəl!

Gözüm, könlüm intizarda,
Niyə məni qoydun darda?
Yara zülm edərmi yar da?
Aman gözəl, aman gözəl!

Göylər salmış ağ bir çadır,
Dünya qocadan qocadır.
Hicran dağı nə ucadır,
Aman gözəl, aman gözəl!

Sevən könlüm ah eylədi,
Sevdi nə günah eylədi,
Sirrini dağa söylədi,
Dedi dağlara-dağlara,
Dedi dağlara-dağlara.

Bahar çağı açdı güllər,
Dağıldı yasəmən tellər,
Oxudu hey şirin dillər,
Dedi dağlara-dağlara.

Dağ döşü lalədən yandı,
Sarı sünbül dalğalandı.
Dəli könlüm səni andı,
Dedi dağlara-dağlara,
Dedi dağlara-dağlara.

SEV

Pəncərəm önündən hər səhər tezdən
Məktəbə gedirsən, a kiçik dostum.
Səni bu dünyada xoşbəxt görməkdir
Mənim ürəyimdə ən böyük arzum.

Sən böyük ümidsən, sən gələcəksən,
Arzusan, əməlsən, şirin diləksən.

Səadətlə boy at, əməklə yaşa,
Nə yaxşı, nə gözəl gün görəcəksən!

Bir dəfə verilir insana həyat,
Yaşa ləyaqətlə, ilhamla yarat.
İnsana verilir yüksək xəyallar.
"Yerdə sürünənə yaraşmaz qanad".

Həyatı, əməli, dostu, yarı sev...
Şeri, musiqini, sənətkarı sev,
Cansız kötük kimi yaşama bir an,
Böyük əməlləri arzuları, sev!

Çəmənlər, çiçəklər, quşlar gözəldir,
İnsan daha üstün, daha əzəldir.
İnsanı yaşadan qayə, əməldir,
Günəşli, işıqlı bir baharı sev.

Vətəndir dünyada hər şeydən əziz,
Vətəni bir ana tanıyırıq biz.
Bağrında böyüdüb bəsləyir səni,
Azadlıq vətəni bu diyarı sev!

ŞƏFQƏT BACISI

Kimə şəfa aparırsan,
Şəfqət bacısı!
Küçələrdən yel kimi
Uçub gedən
Ayparalı maşında?
İnsanlara kömək üçün
Nələr etmir cavan qızlar
Sənin yaşında?!
Bəlkə səni gözləyən
Xəstəni sancı kəsir,
Bəlkə ürək zalımın

Qalıb əlində əsir?
Bəlkə çox qan itirir;
Kəsib əlini bıçaq.
Ona sənin əllərin
Şəfa verəcək ancaq.
Tələs, gülüm,
Tələs, gülüm!
Qorxub qaçsın
Səndən ölüm!
Ağrıları-acıları
İnsanların canından kəs,
Ayparalı maşınlarda
İnsanlara kömək üçün
Tələs, bacım, tələs!..

QIZIMA

Nə gözəlsən, qəşəngsən
gəlinlik paltarında.
Gül-çiçəklə bəzənib
a qızım, yolların da.
Gözlərindən nur yağır,
Nurludur təbiətin...
Nurludur fikirlərin,
Hissin, duyğun, niyyətin.
Səni dövrəyə almış
Cavan qızlar, oğlanlar.
Şəfəqlər aləmində
yaşayan bir nəslin var.
Mən sizi seyr edirəm
Düşünüb dərin-dərin,
Sevindirir könlümü
Gözəl, saf əməllərin.
Kaş əlvan çiçəklərin
Saralıb-solmayaydı.
Sənin nurlu dünyana

Toxunan olmayaydı.
Bu dünya sənin kimi
Gözəl, göyçək olaydı.
Yer üzünü bəzəyən
Gül və çiçək olaydı.
İnsanlar qardaş kimi
Dost, mehriban olaydı.
Şəfəqlərlə parlayan
Nurlu cahan olaydı.
Kin-küdurət kəsəydi
Dünyadan ayağını.
Analar yandıraydı
Fərəhlə çırağını...
Qan izi kəsiləydi
Torpağın sinəsindən,
Hər səhər oyanaydı
Dünya nəğmə səsindən.
Yer üzünü bəzəyən
Gül və çiçək olaydı,
Bu dünya sənin kimi
Gözəl-göyçək olaydı...

MƏNİ DƏNİZ GÖZLƏYİR

Məni yoldan eləməyin,
məni dənizim gözləyir.
Dağları gümüş kimi
o xoş bənizim gözləyir.
Hər gün bir libas geyinir,
gah şal, gah atlas geyinir.
Məxmər geyir qış fəslində,
yaşıl donu az geyinir.
Qəzəblənir insan kimi,
kədərlidir cahan kimi.
Bəzən də məst olub qalır,
tez dəyişir dövran kimi.

Hərdən eşqin xoş rüzgarı
əsib könlümü aldadır.
Məni yoldan eləməyin,
dənizin gözü yoldadır.
Sevdalı, gözəl dənizim,
sənə bulud kölgə salır.
Canım səndən ayrılsa da
məhəbbətim səndə qalır.
Kinin, nifrətin də açıq,
eşqin, niyyətin də açıq.
Gözlə məni, canım dəniz,
gülə-gülə sahilə çıx.

* * *

Dostumla baş-başayam,
bircə dəyməyin mənə,
Dənizimlə qoşayam,
bircə dəyməyin mənə.
Dəniz dərdi ovudar,
sakit edər insanı.
Dənizin çox gücü var,
dəniz sevir tufanı.
Səni oxşayır dəniz
nazlı körpələr kimi.
Bəzən qovar yanından,
qovar dərbədər kimi.
Tufanlı, canlı dəniz,
min bir lisanlı dəniz.
İnsan kimi vəfalı
və istiqanlı dəniz.
Bircə dəyməyin mənə,
dostumla baş-başayam.
Bircə dəyməyin mənə
mən dənizlə qoşayam.

İNSAN KAMİL OLSUN GƏRƏK

İnsan doğulduğu gündən
ölənə qədər
Həkim hökmünə baxar,
həkim gözündən keçir;
Canı-başı ağrısa,
dava-dərman içir.
Dağılsın deyə qəmi, qüssəsi,
Çalışır ki, çıxarsın canından
hər cürə mərəzi.
Kimi üç gündən bir yuyunur,
Kimi beş gündən bir:
İnsan vücudunu
rahat, təmiz istəyir,
Bəs niyə daşıyır
lazımsız, gərəksiz hisslərin,
duyğuların yükünü?
Niyə qaranlıq edir özünə
Bu işıqlı günü?!
Qılıncla ya məhəbbətlə
bilmirəm,
Qəzəblə, ya xoşsifətlə bilmirəm,
Mən qərəzi,
Mənəvi mərəzi,
Paxıllığı, həsədi,
Qeybəti, kəmfürsəti,
Lovğalığı, kobudluğu,
Riyanı, yalanı,
Yadıma düşməsə də qalanı,
Pis-pis insan sifətlərini
qoparıb oda atardım.
Kamil görə bilsəydim
insanı dünyada,
Doğma torpaqlar altında
rahat-rahat yatardım.

* * *

Təbib ziyan yazdı mənə dünyanı,
Hissi, məhəbbəti, xoş arzuları.
Bulaq üstə gedən, a dəstə qızlar,
Alın ilhamımı aparın barı.

Yola kölgə salan qoşa söyüdə
Deyin bu gün olmaz, sabah gələrəm.
O sərin kölgəli palıdın altda
Dərib nəfəsimi bir dincələrəm.

Dağlara çıxmağa həkim qoymayır,
İntizar çəkməsin dağ çiçəkləri.
Doğma təbiətdən gözüm doymayır.
Sifariş eylərəm xoş küləkləri.

Qocalsam, xəstəlik alsa üstümü,
Dəliboy, kəkotu, reyhan gətirin.
Aranda qalsa da vücudum mənim,
Qızlar, xəyalımı dağa yetirin.

ÇİÇƏKLƏR

Sevib oxşadığım əlvan çiçəklər,
Əlvida, ey gözəl yaz çiçəkləri...
Öpdüm gözlərimlə sizi hər səhər
Yığdım dəstə-dəstə az çiçəkləri.

Bəzən məhəbbətin dili lal olur,
Təbiətdə min rəng, min əhval olur.
Çiçəklərdə incə bir xəyal olur,
Bəzəyir hüsnünü naz çiçəkləri.

Sarı nərgiz, nazlı bənövşə, reyhan,
Sizdən ayrı könlüm olur pərişan,
Siz də yad eləyin məni bircə an,
Vəsf eləsin telli saz çiçəkləri.

Əssin üstünüzdən rüzgar ahəstə,
Yığsın sizi qızlar hey dəstə-dəstə;
Yel əssə tökülün sinəmin üstə,
Payız çiçəkləri, yaz çiçəkləri.

ÜRƏK

Məni yarı yolda gəl qoyma, ürək,
Hələ son mənzilə xeyli yol qalır.
Şerlər gözləyir məndən gül-çiçək,
Dağlar sorağımı ruzgardan alır.

Hələ bir aləmdir, arzum, həvəsim,
Dağlara səs salsın gərək şən səsim,
İsitsin dostları ilıq nəfəsim,
Könül rübabını min teldə çalır.

Ürək belə dedi bircə an mənə:
Gah sevgi yüklədin, gah hicran mənə.
Sevinclə, həsrətlə, fərəhlə çarpdım,
Sən ki, heç vermədin bir aman mənə.

Necə dözsün ürək möhnətə, dərdə,
Mən mənzil olmadım heç bir namərdə,
Eşqin atəşinə yandığım yerdə
Heç verən olmadı bir dərman mənə.

* * *

Ürəyim torpaq kimidir.
Yaz nəfəsi duyanda
oyanıb qalxır yaşıl-yaşıl
otlar, çiçəklər.
Toxumları qızdırıb saxlayır içində
Üstündən əsəndə acı küləklər.
Ürəyim torpaq kimi yaralıdır:

Üstündə tikanlı məftillərin
Qanatdığı yaraların ağrısı var.
Ürəyim torpaq kimidir.
Həm yaralı, həm məhsuldar.
Mərmilərdən yaralanmış
Torpaq kimidir qəlbim:
Hicran yarası da var ürəyimdə,
həsrət dağı da:
İldırım vurmuş ağacın
gövdəsindən ayrılan
körpə yanıq budağı da.
Sarı sünbüllərin ağır başı
Əyilir sinəm üstdə
yetişəndə dəni.
İnsan yaradır,
insan əzir,
İnsan yaralayır məni.
Ürəyim şumlanmış
qara torpaq kimidir:
Bahar ətirli küləkləri gözləyir,
Gecələrin xoş sərinliyini,
Əlvan rəngli şəfəqləri
gözləyir.

SÜNİ ÜRƏK

Deyirlər xəstə qəlbi
Dəyişəcək həkimlər,
İnsanın sinəsinə
Süni ürək qoyacaq.
Təbabət bu sahədə
Göstərəcək çox hünər.
İnsan nə səadətdən,
Nə həyatdan doyacaq.
Yalvarıram indidən
O böyük həkimə mən:
Qolumu iflic vursun,

Mənə qol düzəlt, həkim;
Başım, zehnim kütləşsə
Sən bir əlac et, həkim.
Amandır birdə deymə
Mənim xəstə ürəyimə...
Ağrı bilməz süni ürək,
Yaşada bilməz
şirin-şirin xatirələri də:
Biganədəir süni ürək
Həm sevincə, həm də dərdə...
Ömrüm bir iplik kimi
Qırılsa da yarıda,
Ürəyimə dəyməyin,
Əzizdir ürəyimin
mənə yaraları da.

ŞƏKİDƏ XAN SARAYI

Gəzdim otaqları, dolaşdım bir-bir,
Məni cəzb etmədi xanın cəlalı...
Yalnız heyran qoydu dağlar qoynunda
Onu yaradanın zərif xəyalı.

Hansı boyalardan vurmuşdu naxış,
Səldura bilməmiş onu zaman da.
Üstündən keçməmiş nə boran, nə qış,
Elə bil hifz etmiş onu dövran da.

Sənətin nə sirri var bu sarayda,
Yoxsa bir rəmzidir eşqin, kədərin?
Sənətkar xəyalı ulduzda, ayda,
Göylərdənmi almış ilhamı dərin.

Bahara vurğunmuş bəlkə də rəssam,
Seçib o rəngləri yazdan alarmış.
Şəki dağlarında coşqun baharı
Bəlkə uzun-uzun seyrə dalarmış?

Baxdım saraydakı gülə, çiçəyə,
Rəngləri solmamış illərdən bəri,
Qoy baxıb onlara salsın ipəyə,
Şəkili ustanın mahir əlləri.

O bahar eşqilə gülən rəssamın
Sənəti bəzəsin bizim qızları!
Çoxdan torpaq olmuş bir arzu-kamın
Yenidən parlasın xoş arzuları!

TƏRTƏR

Sən dağlardan qoparaq
Qıjıltıyla axırsan.
Vəhşi dağ güllərini
Yandırırsan, yaxırsan.
Hay-küy salıb hər dikdə
Gurlayırsan faydasız.
Səndən bircə qətrə su
Götürməyir gəlin, qız.

Yaz selitək şaqqaşaq
Gurlayırsan dağlarda,
Neçə quru çöl, çəmən
Sənsiz qalmışdır darda.
Susuz, yanan çöllərin
Bağrı cadar-cadardır.
Sənինsə yuxarıda
Ancaq hay-küyün vardır.

Sən aşağı endikcə
Axırsan yavaş-yavaş,
Sakit bir əzəmətlə
Axırsan çölə birbaş.
O sərin nəfəsindən
Çəmən, çiçək də gülür,

Çöllərin üzərinə
Elə bil nur tökülür.
Susuz, yanan düzlərin
Sinəsinə dolursan,
Gör, aşağı endikcə
Nə faydalı olursan.
Çöllərin yarı Tərtər,
Sula bağları, Tərtər!

SU DASTANI

Saf su,
sərin, təmiz su.
Dupduru, ləkəsiz su.
Çiçəklənib bar verir
sulananda bağ-bağat.
Su ilə boz səhrada
canlanıb qalxır həyat.
Su sərinlik gətirir
yanan ürəklərə də.
Su dirilik gətirir
əlvan çiçəklərə də.
Saf su,
sərin, təmiz su.
Dupduru, ləkəsiz su.
Su həyatdır,
Su işıqdır:
Təzə, cavan şəhərlərə
Su ən gözəl
yaraşıqdır...
Saf su,
sərin, təmiz su,
Dupduru, ləkəsiz su.
Sən hər yerdə gərəksən.
Sən hər yerdə əzəlsən.
Dənizlərdə, çaylarda

Faydalısan, gözəlsən.
Dirçəlib rəng verirsən
Al çiçəklər solanda.
Ah, nə yersiz olursan
Nə lüzumsuz olursan
Şerlərə dolanda.

ÇAL

Odlu mizrabına qurban olum, yar!
Çal, səni dinləyir kölgəli dağlar!
Bulud dağ döşündə dayanıb durmuş,
Çöldə ürkək maral boynunu burmuş.
Burula-burula gedən yollara
Uzaq bir həsrətin çökmüş kölgəsi.
Çal ki, bu dağlarda coşqun bahara
Xoş ilham gətirir sazının səsi.
Odlu mizrabına qurban olum, yar!
Çal, səni dinləyir səfalı dağlar.
Ayna bulaqların ləzzəti varmı
Üstündə oxuyan, çalan olmasa?
Coşqun mizrabıyla, xoş nəğməsiylə
Dərələrə səs-küy salan olmasa?
Yaşıl yamacların, uca dağların
Bəzəyi, zinəti nazlı gözəllər,
Saz səsi, ney səsi olmasa, bil ki,
Gözəl təbiətdən çoxdan bezərlər.
Odlu mizrabına qurban olum, yar!
Çal, səni dinləyir səfalı dağlar!

ANARA

Hicranın ağırdır, dözə bilmirəm,
O uca dağlardan en gəl, Anarım!
Körpə ayaqların yaman yorulub,
Sinəmin üstündə dincəl, Anarım.

Sənsiz nə gecəm var, nə də gündüzüm,
Sən gedəndən bəri gülməyib üzüm,
Gəl uzun kirpikli körpəcə quzum,
Anarım, Anarım, dəcəl Anarım.

Dedilər heyransan gülün ətrinə,
Gül qatdım şərimin hər bir sətrinə,
Min cəfaya dözdüm sənin xətrinə,
Anarım, Anarım, dəcəl Anarım!

Sən ceyran gözlüsən, çatmaqaşlısan,
Tayın-tuşun çoxdur, yar-yoldaşlısan,
Bəlkə məndən ayrı gözü yaşlısan,
Olmuş bu ayrılıq əngəl, Anarım!

Dağların sinəsinə lalə, bənövşə,
Yaylaqlar qonağı ol sən həmişə,
Qoyma bu dağlara bir xəzan düşə,
Tökülə yollara xəzəl, Anarım!

BÜLBÜL

Bülbül, fəğan etmə bu gecəyarı,
Şirin yuxudadır hələ nazlı gül;
Könüldə məhəbbət oyanmamışsa,
Fəğanla oyatmaq olarmı, bülbül?

Qızılgül şahıdır bütün güllərin,
O hələ qönçədir, yuxusu dərin;
Ona oxşayanda meh sərin-sərin,
Səbrinin kasası dolarmı, bülbül?

Gözəl bir ölkənin şən bülbülüsən,
Heyran eləmisən qönçə gülü sən;
Ellərin mehriban, şirin dilisən,
Sevimli nəğməkar ağlarmı, bülbül?

Mənim də yurdumun bir Bülbülü var,
Səsi bülbül səsi, qəlbi sənətkar;
Həzin nəğməsində gülümsər bahar,
Ona ilham verən baharmı, bülbül?

Ona çatan yoxdur hələ sənətdə,
Şirin nəğmələrə saf məhəbbətdə.
Dost, yar-yoldaşa xoş bir ülfətdə
Səninlə bağlamış ilqarmı, bülbül?

LALƏ

Sən ey gül fəslinin dildarı, lalə,
Yaşıl çəmənlərin sərdarı, lalə!
Al-əlvan geyimli dağlar gözəli,
Sən kimdən öyrəndin vüqarı, lalə?!

Səni kim yaratdı böylə alyanaq?
Kiçik yarpağında incəliyə bax!
Sənin rəngindədir sevdiyim bayraq,
Sən ilk salamlarsan baharı, lalə!

Çöldə hər çiçəyin bir ətri olar,
Hər gülün öz yeri, öz xətri olar,
Şerimin ən əziz bir sətri olar,
İlk bahar fəslinin şüarı, lalə!..

KÜRD QIZI

Bulaq üstə kürd qızı
Bir stəkan su verdi.
Bu qaynar çeşmələrdən
Su içənin nə dərdi?!
Dağ günəşi tunc rəngdə
Boyamışdı gözəli,
Onun qumral saçını

Oxşayırdı dağ yeli.
Dağ çiçəyi kimi tər,
Dağ yelitək əlvandı,
Neçə gəncin ürəyi
Onun oduna yandı.
Bilmirəm, İstisuyun
Şəfalıdır qaynağı,
Yoxsa onun hüsnüdür
Bu dirilik bulağı?

SOYUQ BULAQ

Soyuq bulaq, Soyuq bulaq,
Gəl sinəmin üstündən ax!
Meşələrin qoynunda sən
Bizdən gizlənmisən nahaq.

Meşələrin qoynu sərin,
Həm durusan, həm də dərin,
Sənə qonaq gələnlərin
Sirdaşısan, Soyuq bulaq,
Gəl sinəmin üstündən ax!

Yar üstündən keçməsəydi,
Əyilib su içməsəydi,
Sən qanrılıb baxmaz idin,
Şırıl-şırıl axmaz idin,
Soyuq bulaq, soyuq bulaq,
Gəl sinəmin üstündən ax!

QƏLƏM

Qoy yanımda olsun mənim yarağım,
İgidin yarağı yanında gərək.
Bəlkə ilham oldu gecə qonağım,
Bəlkə bir sevdayla çırpındı ürək.

Qələmim olmasa yaza bilmərəm,
Bir gün ondan ayrı dözə bilmərəm.
Göydə laçın kimi süzə bilmərəm,
Ömrün yollarından bərabər keçək.

Bircə qələm oldu mənim zinətim,
Bəzəyim-düzəyim, zövqüm, şöhrətim.
Həyatda hər arzum, hər xoş niyyətim,
Ömür badəsini biz qoşa içək!

OYAN

Oyanmış, sevgilim, günəş də çoxdan,
Bu sabah dağlar da geyinmiş əlvan.
Aç xumar gözünü, yuxudan oyan,
Oyan, gözlərinə qurban olduğum!

Bahardır, əriyir dağların qarı,
Əsir ana yurdun sərin ruzgarı.
Sənindir könlümün dövləti, varı,
Oyan, gözlərinə qurban olduğum!

Sən güləndə açır bir yaz sabahı
Nədir bu qəlbimin, bildir, günahı?
Sənsən ilhamımın dostu, pənahı,
Oyan, gözlərinə qurban olduğum!

GƏLİR

Əs, ey sərin ruzgar, bu axşamçağı
Bizim bu ellərə nazlı yar gəlir.
Keçirib qəlbini min imtahandan,
Eşqinə, hissinə vəfadar gəlir...

Bülbül, tərk eləmə dostun bağını,
Gətir sevgilimin ilk sorağını.
Əymə, dəli ruzgar, gül budağını,
Xəzan bağçasına lalәzar gəlir.

Çırpın, dəli könlüm, bu axşam bir az,
Cəfasız eşqin də ləzzəti olmaz.
Yaraşır canana bu işvə, bu naz,
Sallana-sallana ilk bahar gəlir.

GƏLMƏDİ

Gəlmədi, ilk dəfə pozdu vədini
Könül, nə deyirsən, sən bu işə, nə?
Çox imtahan etdi, heç inanmadın,
Eşqin yollarında yorğun düşənə.

Gəlmədi, bir sadə təsadüf deyil,
Bir uğursuz niyyət saxladı onu.
Xəyal dünyasından ceyran baxışlı
Görən bir afətmi kəsdi yolunu?

Axıtdım sel kimi mən göz yaşımı,
Gəlmədi... nə ağır oldu bu kəlmə.
Əyilmiş görməmək üçün başımı
Səadət də olsan bir daha gəlmə!

ÇAĞA

Sükut içindədir evimiz
yatır evin sakinləri
şirin-şirin.
Yuxular sayıq,
yuxular dərin.
Hələ dan yeri ağarmamış,
əfsanəvi gecə
Qısa ömrünü qurtarmamış
ağ bir bükülü içindən
Xırdaca bir varlıq
bağırtıyla oyanır.
Nə yorğunluq bilir,
nə sükut qanır.

O, azadlıq istəyir
ələ-qolunu çıxarıb qundaqdan
Çapalamaq istəyir,
varlığını elan edib dünyaya.
Canlılar aləmində
özünə haqq istəyir.
Gözlərində təbəssümlə
oyanır evin sakinləri.
Bu bağırtı
əsəbinə toxunmayır
heç kəsin.
Qarşısına çıxan olmaz
bu qüdrətli səsin.
Bu səs nəğmələrin
ən şirini,
nəğmələrin ən güclüsü –
Yeni həyat səsidir...
Bu səs,
bu çağa səsi
ağrılarda, əzablarda doğulan
gələcəyin qalibiyyət nəğməsidir.

İNSAN GÜLÜŞÜ

Hər nəğmədən, hər avazdan xoş olur
Ürəklərdən qopan insan gülüşü.
Qoymayın kəsilsin, sevimli gənclər,
Gözəl yurdumuzdan bir an gülüşü.

İnsanın gülüşü dünyaya dəyər,
Zəhərli, iyneli olmasa əgər;
Gəlsin bağçalardan hər axşam-səhər,
Ötsün qumru kimi canan gülüşü.

Gəncliyə, həyata zinətdir gülüş,
Silahdır, qüvvətdir, qüdrətdir gülüş;
Xasiyyətdə gözəl cəhətdir gülüş,
Yaşadır bu qoca cahan gülüşü.

Gülüşü dünyaya dəyənlər də var,
Gülüşlə zamanı döyənlər də var.
Gülüşü bir dağı əyənlər də var,
Yaşatsın bu gözəl dövran gülüşü.

GÜNƏŞDƏN QORXMA

Deyirsən qorxuram rəngim qaralar,
Həyat mənbəyidir, günəşdən qorxma!
Ömrün cövhəridir əmək dünyada
Xeyirli, faydalı bir işdən qorxma.

Nəcib əməllərlə parlayır əmək,
Bir quru hissiylə çırpınır ürək.
Nuş olar canına yediyin çörək,
Hər gözəl adətdən, vərdişdən qorxma.

Yaxşıda, yamanda dosta gərək ol,
Güllü bağçalarda açıl, çiçək ol.
Qaş qabaqlı olma, açıqürək ol,
Bu gözəl aləmdə gərdışdən qorxma.

NƏRGİZ GÜLÜ

Mən dağlardan nərgiz gülü gətirdim,
Şaxta vurdu nərgizlərim dondular.
Yuvasından ayrı düşən quş kimi
Həzin-həzin sinəm üstə qondular.

Ürəyimdə nə hərarət vardısa,
Mən bu solan çiçəklərə bağladım.
Şaxta vurub nərgizlərim donanda
Mən dözmədim, sakit-sakit ağladım.

Hər dərdimi dərin-dərin gizlədim,
Gizlin dərdim gözlərimdən oxundu:
Nadan gördüm, sərt nəfəsi şaxtatək
Ürəyimin nərgizinə toxundu.

AĞ ÇİÇƏKLƏR

Ömrümün, günümün yar-yaraşığı,
Al-əlvan geyimli dağ çiçəkləri,
Niyə əziz tutdu könlüm, bilmirəm,
Çiçəklər içində ağ çiçəkləri.
Ayrılıq rəmzidir həzin görkəmi,
Görün nə incədir qüssəsi, qəmi,
Yar onu verəndə ayrılıq dəmi
Dedi: sinən üstə tax çiçəkləri.

GÖZƏLLİK

Gözəllik hər zaman oxşayır bizi,
Gözümüz hər yerdə axtarır onu.
Füsunkar gözəllik ruha xoş gəlir
Nə qədər sadəcə olsa da donu.
Qəlbi təmiz olan insan gözəldir,
Şəfəqlər içində cahan gözəldir...
Bəzəkli nadandan ağıllı bir kəs
Sadə paltarda da, inan, gözəldir.
Bərbəzək yaraşır qıza, gəlinə,
Hər şeyin öz yeri, öz məqamı var,
Bir kitab götürsə hərdən əlinə,
Daha çox yaraşar əyninə paltar.
Əqil, zəka olsun gözəldə gərək,
Günləri mənasız gəlib keçməsin...
Xeyirli işlərin başında gərək,
Məzmunsuz həyatı sevib seçməsin.

Gözəl ana olsun, gözəl rəfiqə
Gözəl həkim olsun, gözəl mühəndis.
Baxıb fərəhlənək, sevinək hər vaxt
Varlığın bu gözəl nemətinə biz.

HƏKİM

Daha ağrımır yaram,
Deyəsən sağalıram.
İlk baharı görəcəm,
Bağlardan gül dərəcəm,
Göy dağlara qalxacam,
O uca zirvələrdən
Enişlərə baxacam.
Göylər firuzə rəngli,
Yamaclar gül-çiçəkli
Bizə qonaq gəl, həkim.
Bulaqların başında
Bir az dincəl, həkim.
Gəl, göstərim sənə
Mən Göygölü, Kəpəzi...
Gəlişinlə nə olar
Bir az sevindir bizi.
Gəzək gözəl Şuşanı,
Dolaşaq qarış-qarış,
Gizlənək Daşaltıda
Yağanda dolu, yağış...
Qalxaq Cıdır düzündə
Yalçın qayalar üstə,
Göyçək Şuşa qızları
Gül versin dəstə-dəstə.
Sən mənə həyat verdin.
Qurtuluş, nicat verdin.
Mən də göy bağlarımın
Sənə barını verim:
Gözəl təbiətimi, arzularımı verim.

LİRİK MİNİATÜRLƏR

* * *

Səni qadın çağırır,
Ürəyinin səsiylə,
Məhəbbət nəğməsiylə...
Belə çağırır
bir-birini
Çəməndə çiçəklər,
Meşədə quşlar...
Belə çağırır küləklərini
Ətirli bahar...
Belə çağırır
Susuz yanan çöl –
buludu...
Belə çağırır
fırtınalı göl –
sükutu...
Səni qadın çağırır
Ürəyinin səsiylə,
Alovlu nəfəsiylə...

* * *

Sevgi ilham kimidir:
Təmiz, yüksək, müqəddəs...
xoşbəxtdir,
Məhəbbət duyğularıyla
Könüldən-könülə
bağlanan hər kəs.
Sevənlərin xətrinə
dəyməyin, insanlar.
Sevgi
insan ömrünə,
insan ümidinə
gətirir bahar.

* * *

Soyuq nəfəsli fevral,
Küləkli, tufanlı mart...
Yaralarımın ağrısı.
Bir də sənin məhəbbətin,
Bir də sənin həsrətin...
İnan, sənə doğrusunu yazıram,
Yüz dəfə, min dəfə yenidən
Bu yaraların ağrısına
dözməyə hazıram.
Bircə bu məhəbbəti
Bu sonsuz həsrəti
Ürəyimdən silə biləydim,
Əvvəlkitək qayğısız, şən
Gülə biləydim, gülə biləydim.

* * *

Sən dağdan axan bulaq kimisən
Təmiz, şəffaf, dərin...
Nə yazıq, nə yazıq ki,
əzizim,
Bulaq suyu kimi
soyuqdur gözlərin...

* * *

Gəlsən ölərəm
sevincdən, səadətdən;
Gəlməsən ölərəm
qəmdən, həsrətdən...
İndi ki ölümüm
yaşayır səndə
Nə fərqi var, əzizim,
Gəlsən də, gəlməsən də.